AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

MEHMET ALİ DURDU OĞLU CEYHAN

# ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNİN AKADEMİK NAİLİYYƏTİNİN VƏ İXTİSAS HAZIRLIĞI KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ TYUTORLUQ FƏALİYYƏTİNİN ROLU

**5804.01-Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

NAXÇIVAN- 2015

İş Naxçıvan Dövlət Universitetinin “**Pedaqogika və psixologiya**” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Pedaqogika üzrə elmlər doktoru,
professor **Əjdər Əbdülhüseyn oğlu Ağayev**

**Rəsmi opponentlər:** Pedaqogika üzrə elmlər doktoru,
professor **Oruc Qafar oğlu Həsənli**

Pedaqogika üzrə fəlsəfə doktoru,
dosent **Vidadi Paşa oğlu Bəşirov**

**Aparıcı təşkilat:** **Sumqayıt Dövlət Universitetinin**
**“Pedaqogika və psixologiya”** kafedrası

**Müdafiə** 05__ dekabr 2015-ci ildə saat $\underline{11^{00}}$ -da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**ÜNVAN:** AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina, I mərtəbə, Böyük akt zalı.

**Dissertasiya** ilə Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

**Avtoreferat** __ noyabr 2015-ci ildə göndərilmişdir.

**FD. 02.121 DİSSERTASİYA**
**ŞURASININ ELMİ KATİBİ:** **dos. İ.Z.Cəfərov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə universitetlər gənclərin peşə həyatına atılmadan əvvəl peşə və ictimai keyfiyyətlər qazanmalarını təmin edən və ya onların bu keyfiyyətlərini inkişaf etdirən qurumlardır. Ali təhsil müəssisəsində tyutorluğun tətbiqi gənclərin peşəyə daha mükəmməl hazırlaşmalarına kömək edir.

Tyutorluq ali təhsil müəssisələrində hər bir tələbəyə fərdi olaraq kömək edən, həmçinin tələbələrin ali təhsil müəssisəsiylə və digər insanlarla münasibətləri çərçivəsində yaranan çətinliklərinin həlli istiqamətində yol göstərən məsləhət vasitəsidir. Tyutorluq xidməti tələbələrin peşə hazırlığının, ictimai fəaliyyətlərinin, fərdi təşəbbüskarlığının və digər sosial problemlərinin müvəffəqiyyətlə həll olunmasına kömək edir.

Keyfiyyətli kadrlar hazırlamaq istiqamətində universitetlər tələbələrə təhsil aldıqları ixtisaslar üzrə tələb olunan zəruri bilik və bacarıqları qazandırmaqla yanaşı, şəxsiyyətlərinin formalaşması prosesində qarşılaşılan problemləri təsbit edərək, həll təklifləri ilə çıxış etməlidirlər. Bu çərçivədə ali təhsil müəssisələrinin vəzifələrindən hesab edilən tyutorluq xidməti ali təhsil müəssisələrinin tyutorluq fəaliyyət proqramı çərçivəsində peşəkar tyutorlar tərəfindən tələbələrlə mütəmadi görüşlər təşkil edilərək onlara ehtiyac duyduqları məsələlərdəköməklik etmək və yol göstərmək xidmətidir. Tyutorluq xidməti tələbənin təhsil aldığı müəssisəni yaxşı tanımasına, daxili qayda-qanunları vaxtında öyrənməsinə, ictimai və akademik mühitə daha tez və rahat uyğunlaşmasına, fərdi keyfiyyətlərinin üzə çıxarılmasına və inkişaf etdirilməsinə, özünə inamının formalaşmasına, düzgün seçim imkanlarının artmasına və peşəsi üçün tələb olunan zəruri keyfiyyətlərə yiyələnməsinə müsbət təsir göstərir. Başqa bir ifadə ilə desək, tyutor tələbələrin təlim və tədris xidmətlərindən ən optimal səviyyədə faydalana bilməsi məqsədilə təlim və tədrislə bağlı problemlərinin həllində onlara kömək etmək üçün vəzifələndirilən şəxsdir. Tyutorluq və ya ali məktəbdə tyutor xidməti Azərbaycanın 2005-ci ildə Boloniya prosesinə qoşulmasından sonra ölkənin ali təhsil sisteminə daxil olmuşdur. Biz bunun təhsil haqqında Azərbaycan Respublikasının Qanununda da təsbit olunduğunu görürük.

Hər ali təhsil müəssisəsinin özünəməxsus təşkilati quruluşunun olduğunu nəzərə alaraq, hər bir ali təhsil müəssisəsinin tyutorluq strukturunu da öz təşkilati quruluşuna uyğun planladığını və tətbiq etdiyini qeyd edə bilərik. Bu səbəblə bu tədqiqat işində Azərbaycanda fəaliyyət göstərən ali təhsil

müəssisələrində tyutorluq fəaliyyətlərinin yuxarıda qeyd edilən zəruriliklərdən başqa hansı ehtiyaclar səbəbi ilə ortaya çıxdığı, necə inkişaf etdiyi hal-hazırda tətbiq olunan nümunəvi modellər əsasında incələnmişdir.

Ali təhsil müəssisələrinin inkişafında əhəmiyyətli rola sahib olan tyutorların xidmətlərindən arzulanan nəticənin hələ kifayət qədər əldə edilə bilinməməsinin əsas səbəbi universitetlərdə tyutorluqla əlaqədar vəzifələrin tam olaraq müəyyən edilməməsi və tyutorların vəzifələrinin nələr olduğunun tam olaraq bilinməməsidir. Buna görə də tyutorların və tələbələrin tyutorluq vəzifəsi ilə bağlı bilgiləri araşdırılmalı və tyutorluq işinin əsasları müəyyən olunmalıdır.

Tələbələrin ehtiyaclarına uyğun xidmətlərin verilə bilməsi üçün tyutorluq xidmətlərinin əsaslarının müəyyən olunmasıyla yanaşı, tyutorların vəzifələrini yüksək səviyyədə yerinə yetirmələrinə təsir edən faktorların da müəyyən olunması zəruridir. Tyutorların mövcud fəaliyyət şərtlərinin müəyyən olunması universitetlərdəki tyutorluğun daha real və elmi əsaslarla tətbiq olunmasını təmin edə bilər. Məhz buradan da dissertasiyanın aktuallığı meydana çıxır.

**Tədqiqatın obyekti** ali təhsil müəssisəsində tyutorluq fəaliyyətinin təşkili və həyata keçirilməsidir.

**Tədqiqatın predmetini** ali məktəb tələbələrinin akademik nailiyyətinin və ixtisas hazırlığı keyfiyyətinin yüksəldilməsində tyutorluq fəaliyyətinin rolunun müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqatın məqsədi** ali məktəb tələbələrinin akademik bilik və ixtisas hazırlığı keyfiyyətinin yüksəldilməsində tyutorluq fəaliyyətinin istiqamətlərini və rolunu müəyyənləşdirmək və iş sistemini hazırlamaqdır.

**Tədqiqatın fərziyyəsi.** Elmi-pedaqoji və müasir metodiki əsaslar nəzərə alınarsa, tyutorların seçim fəaliyyəti uygun olarsa, müəllim-tələbə əməqdaşlığı şəraiti demokratik və hümanist prinsiplərə əsaslanarsa ali məktəb tələbələrinin akademik bilik və ixtisas hazırlığı keyfiyyətinin yüksəldilməsində tyutorluq fəaliyyətinin rolu səmərəli nəticələr verə bilər.

**Tədqiqatın vəzifələri.** Dissertasiyada aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- ali məktəbdə tyutorluğun rolu və əhəmiyyətini müəyyənləşdirmək;
- tyutorların iş prinsipləri və peşəkarlıq keyfiyyətlərini müəyyənləşdirmək,
- bu sahədə mövcud vəziyyəti təhlil etmək,
- tyutorluq fəaliyyətinin reallaşmasına mane olan amilləri

müəyyənləşdirmək və aradan qaldırılması yollarını göstərmək,
- tyutorluğun tələbələrin akademik bilik və peşə keyfiyyətlərinin formalaşmasına təsirini müəyyənləşdirmək,
- tyutorluq fəaliyyətinin səmərəliliyini şərtləndirən cəhətləri üzə çıxarmaq.

**Tədqiqatın metodoloji** əsasını fakt və hadisələrə dialektik yanaşma təşkil edir.

**Tədqiqat metodları** mövzu ilə əlaqədar əsərlərin nəzərdən keçirilməsi, nəzəri təhlil, müşahidə, müsahibə, anket sorgusu, riyazi-statistik metodlardan ibarətdir. Tədqiqatda Azərbaycanda fəaliyyət göstərən bəzi ali təhsil müəssisələrində tyutorluq xidmətlərinin mövcud vəziyyəti öyrənilmiş, o cümlədən tələbə və tyutorlar nümunəsində təhlillər aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tyutorluq fəaliyyəti pedaqoji problem olaraq Azərbaycanda elmi dövriyyəyə daxil edilir. Tyutorluq fəaliyyətinin səmərəli təşkilinin pedaqoji –metodik əsasları təqdim olunur.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqat tələbələrin akademik bilik və ixtisas hazırlığı keyfiyyətinin yüksəldilməsində onların fəaliyyətinin rolunu və onun nəzəri əsaslarını müəyyənləşdirir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Əsərin praktik əhəmiyyəti orasındadır ki, tyutorların mövcud fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə yardım edəcək, universitetlərdə tyutorluq fəaliyyətinin təkmilləşdirilməsinə təsir göstərəcəkdir. Eyni zamanda, tyutorluq məsələsi ilə bağlı mühazirələr hazırlanması üçün yaxşı bir vəsait olacaqdır.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Dissertasiyanın əsas məzmunu, elmi müddəa və nəticələri Azərbaycan, Rusiya və Ukraynada nəşr edilən elmi məqalələrdə öz əksini tapmış, iddiaçı mövzu ilə əlaqədar müxtəlif elmi-praktik konfranslarda məruzə və tezislərlə çıxış etmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, 2 fəsil, o cümlədən 9 yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində tədqiqatın aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, fərziyyəsi, elmi yeniliyi ilə yanaşı, istifadə olunan metodlardan bəhs olunur, tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti və nəticələrinin tətbiqi barədə qısa məlumat verilir.

Dissertasiyanın "**Ali məktəblərdə aparılan tyutorluq fəaliyyətinin məzmunu və istiqamətləri**" adlı birinci fəsli beş yarımfəsildən ibarətdir. Fəslin "**Təlim və tədris prosesində tyutoruğun rolu və əhəmiyyəti**" adlı ilk yarımfəslində problemin nəzəri məsələləri şərh olunur, məzmunda təhsilin fərdlərdə həyatın nəticəsi olaraq meydana gələn, nisbətən qalıcı və davamlılıq göstərən iradəvi davranışlar qazandırma prosesi olduğu əsaslandırılır. Qloballaşan dünyada fərdlərin dəyişən rollarına və dəyişən şəraitə uyğunlaşa bilmələri üçün onlara müəyyən bilik və bacarıqları qazandırmaq təhsilin ən ümdə vəzifəsidir. İnkişaf edən və dəyişən cəmiyyətlə birlikdə təhsil prosesini "təhsil və tyutorluq" aspektində ələ alan, fərdin yalnız zehni və akademik baxımdan nailiyyətinin əhəmiyyət kəsb etdiyi müəllim indeksli ənənəvi təhsil anlayışının yerini, fərdlərin fiziki, duyğusal, zehni və akademik keyfiyyətlərini inkişaf etdirmə anlayışını əsas alan tələbə indeksli müasir təhsil anlayışı tutmuşdur. Müasir təhsili ənənəvi təhsildən fərqləndirən ən əhəmiyyətli xüsusiyyət tələbələrə verilən tyutorluq xidmətləridir.

Müasir təhsilin fərdi əxlaqlı, keyfiyyətli, işgüzar, faydalı və s. kimi cəhətlərdən tələbələrin fiziki, zehni, psixoloji və sosioloji baxımdan özlərini bir bütün olaraq inkişaf etdirmələrinə köməklik göstərmək məqsədi qarşısında tələbələrin təhsil fəaliyyətlərindən effektiv şəkildə faydalana bilmələri və özlərini bir bütün olaraq inkişaf etdirə bilmələri üçün istər müəssisə daxilində, istər müəssisədən kənarda zəruri xidmətlərin təmin edilməsində tyutorluq fəaliyyətlərinin əhəmiyyətli rolu vardır.

Ali təhsil müəssisələri fərqli qabiliyyətə, maraqlara, ehtiyac və sosial-mədəni dəyərlərə sahib tələbələrin bir yerdə toplandığı məkanlardır. Psixologiya elmi qloballaşan dünyada təhsil müəssisələrində bir yerə toplanan fərdlər arasında geniş fərqliliklərin olduğunu və təhsilin bu fərqliliklər nəzərə alınaraq verilməli olduğu zərurətini ortaya qoymuşdur. Fərdi fərqliliklərə malik dəyərli bir varlıq kimi qəbul edən, bu fərqlilikləri də cəmiyyətin zənginliyi olaraq görən və tələbəni bütün cəhətləri ilə dəyərləndirən, müasir təhsil anlayışında fərdin yüksək səviyyədə inkişafının təmin edilməsində əhəmiyyətli rol oynayan tyutorluq xidməti tələbələrin ehtiyac duya biləcəyi tibbi, ictimai, mədəni, sosial və psixoloji xidmətlərin hamısını əhatə edir.

I fəslin "**Tyutorluq fəaliyyətlərinin tarixi, məqsədi, funksiyası, növləri, prinsipləri və tələbləri**" adlı ikinci yarımfəslində, tyutorluğun tarixi inkişafı, əsas məqsədi, əsas funksiyaları, xidmət növləri ilə xidmətlərin prinsip və tələbləri izah edilmişdir. Tyutorluğun rolu və

funksiyaları ümumi inkişaf prosesi içərisində maliyyə imkanlarının dəyişməsi, tyutorların maraqlarının müxtəliyi, ali təhsil müəssisələrinin şəhərciklərindəki fərqli ictimai mühit, tyutor profili, tələbələrin maraq və ehtiyaclarının dəyişməsi, tyutorluq ixtisasının inkişafı kimi amillərlə yanaşı, dünyada baş verən hadisələrin də təsiri ilə mütəmadi olaraq dəyişmiş və inkişaf etmişdir.

Tyutorluq ilk dəfə 1870-ci illərdə Amerikada ali məktəb tələbələrinə dərs qeydiyyatlarının aparılmasında və dərs seçimlərində köməklik göstərmək məqsədiylə ortaya çıxmışdır. XIX əsrin sonlarından etibarən ali təhsil müəssisələri azalan tələbə sayılarını artırmaq məqsədiylə tyutorluqdan bir strategiya kimi istifadə etməyə başlamışlar. 1900-cü illərdən etibarən tyutorluğun funksiyasının əhatə dairəsi də genişlənmişdir. Şəxsiyyətin formalaşması və peşə sahələriylə bağlı fəaliyyətlər artırılmış, 1930-cu illərdən sonra artıq ali təhsil müəssisələrində peşəkar tyutorlar çalışmışlar. 1950-ci illərdən sonra tyutorluq bir ixtisas sahəsi kimi qəbul edilmiş, fərdi bacarıqların üzə çıxarılması və ehtiyacların qarşılanması məqsədiylə tyutorluq mərkəzləri fəaliyyət göstərməyə başlamışdır.

XX əsrin sonlarında ilk dəfə tyutorluq xidmətlərinə görə birbaşa məsuliyyət daşıyan professional tyutorlarla yanaşı, universitet rəhbərliyinin və tələbələrin də iştirakı ilə "Milli Akademik Tyutorluq Birliyi" adlı bir təşkilat yaradıldı.

Bütün sahələrdə olduğu kimi təhsil sahəsində də müasir dünya standartlarına uyğunlaşmaq istəyən Azərbaycanda ali təhsilin keyfiyyətini yüksəltmək məqsədilə müasir tyutorluq anlayışının üniversitetlərdə tam olaraq tətbiq olunması 2005-ci ildə Azərbaycanın Bolonya prosesinə qoşulması ilə başladı. 2006-cı ildə isə bu istiqamətdə ali məktəblərdə kreditli təhsil sisteminin tətbiqi haqqındakı Əsasnamənin qəbul edilməsindən sonra ilk dəfə mərhələ-mərhələ Bakı Dövlət Universiteti bütün fakültələrində Bolonya sisteminin tətbiqinə başlamışdır. Üniversitet rəhbərliyi yeni sistemə uyğun peşəkar kadrların hazırlanması məqsədilə 2008-ci ildən Azərbaycanda ilk dəfə tyutor kursları təşkil etmişdir. Bu kurslarda müvəffəqiyyət qazananlar fakültələrdə tyutor kimi fəaliyyətə başladılar. Ali təhsil müəssisələrində tədris məsləhətçisi ya da akademik məsləhətçi kimi xarakterizə olunan tyutorların vəzifəsi tələbələrə köməklik göstərməkdir. Belə ki, tyutorlar tələbələrin akademik maraqlarını qoruyur, onların hüquqlarını müdafiə edir, eyni zamanda tədris prosesinin təşkili ilə bağlı zəruri məlumat və sənədləri onlara çatdırırlar. Tələbələrə fərdi dərs proqramlarının hazırlanmasında məsləhətlər verir, eyni zamanda elektron

universitetin fəaliyyətini təşkil və ona nəzarət edir. Bolonya prosesinə tam inteqrasiya Azərbaycan ali təhsil müəssisələrində tyutorluq fəaliyyətlərinin keyfiyyətli şəkildə tətbiq olunmasınının əhəmiyyətini artırmış, universitetlərin bütün kafedralarında tyutorların vəzifələndirilməsi qanunvericilik normasıyla tənzimlənmişdir.

Ali məktəblərdə həyata keçirilən tyutorluq fəaliyyətləri çərçivəsində istənməyən davranışların qarşısını almaq, fərdi bir bütün olaraq inkişaf etdirmək, tələbələrin müxtəlif problemlərinin həllində kömək etmək, çarə tapmaq kimi funksiyalar yerinə yetirilir. Ancaq bunların içərisində tələbənin inkişafı istiqamətində həyata keçirilən tyutorluq fəaliyyətlərinin xüsusi yeri vardır. Bu çərçivədə tyutorluğun məqsədlərini akademik və elmi bir təcrübə olmasını da nəzərə alaraq aşağıdakı kimi sıralaya bilərik:

- Fərdin özünü tanımasına, dərk etməsinə kömək etmək.
- Fərdin öz problemlərini özünün həll etməsinə kömək etmək.
- Fərdin düşdüyü mühitə uyğunlaşmasına kömək etmək.
- Fərdin görünən və ya gizli potensialını inkişaf etdirməyə kömək etmək.
- Fərdin özünü təsdiq etməsinə kömək etmək.
- Tələbələrin interaktiv dərs və imtahanlara hazırlaşma qabiliyyətlərinin artırılmasına kömək etmək.
- Zamandan səmərəli istifadə etmə qabiliyyətinin artırılmasına kömək etmək.
- Seçim etmə və qərar vermə qabiliyyətinin formalaşmasına kömək etmək.
- Problem həll etmə bacarıqları qazanmalarına kömək etmə.
- Öz qabiliyyətlərini tanımalarına və özlərini olduğu kimi qəbul etmələrinə kömək etmək.
- Ünsiyyət qabiliyyətlərinin artırılmasına kömək etmək.
- Peşələri tanımalarına və peşələr haqqında mühakimə bacarığının inkişafına kömək etmək.
- Maraq və qabiliyyətlərinə uyğun fəaliyyətlərə yönəlmələrinə kömək etmək.
- İctimai həyatın tələblərinə uyğun və məsuliyyətli davranış formalaşdırmalarına kömək etmək.
- Bəşəri dəyərlərə yiyələnmələrinə kömək etmək.

Görüldüyü kimi, tyutorluq xidmətləri akademik, fərdi və peşəyönüm məqsədli fəaliyyətlər olaraq qruplandırıla bilər.

Tyutorluq xidmətlərinin yaranmasında texnologiyanın inkişafından

qaynaqlanan bəzi ictimai çətinliklərin, iş həyatında baş verən köklü dəyişikliklərin, peşə növlərinin sürətlə artmasının, ixtisaslaşma anlayışının dərinləşməsinin, tələbələrin qarışısında alternativ peşə seçimi imkanlarının artmasının, fərdi fərqliliklərin əhəmiyyətini artırmasının, müasir təhsil anlayışının mənimsənməsinin, tələbələrin seçim azadlıqlarının artmasının, qərar vermə bacarığına sahib fərdlərə ehtiyacın artmasının, fərdin fiziki gücdən ziyadə ağlına verilən dəyərin artmasının əhəmiyyətli rolu olmuşdur. Qeyd olunan səbəblərə əsaslanaraq həyata keçirilən tyutorluq xidmətləri cəmiyyətlərin xüsusiyyətlərinə və təhsil fəlsəfələrinə görə fərqli ola bilər. Buna görə, müəssisələrdə tyutorluq xidmətləri müəyyən bir qrup tərəfindən müəyyən prinsiplər əsasında icra edilərsə, arzulanan keyfiyyət əldə edilə bilər. Ali təhsil müəssisələrində tyutorluq fəaliyyətləri müəssisə rəhbərliyinin nümayəndələri, müəllimlər, valideynlər və tyutorlardan ibarət qruplar tərəfindən aşağıdakı prinsiplər əsasında icra edilə bilər:

- Tyutorluq fəaliyyətlərində könüllülük əsasdır.
- Hər insan qiymətlidir fəlsəfəsinə əsaslanaraq hümanist bir yanaşma ilə demokratik sərhədlər çərçivəsində bütün etiqad, azadlıq və hüquqlara, qısacası, bütün dəyərlərə hörmət edilməlidir.
- Tələbə seçim etmədə azaddır. Tyutorun vəzifəsi tələbənin yerinə seçim etmək deyil, tələbənin qarşısındakı alternativlər arasından düzgün seçim etməsinə kömək etməkdir.
- Tyutorluğun məqsədi fərdin şəxsiyyətinin formalaşmasına kömək etmək və həyatını asanlaşdırmaq olduğuna görə, fərdin ehtiyac duyduğu tyutorluq fəaliyyətləri fərdə həyatın bütün dövrlərində verilməlidir.
- Tyutorluq fəaliyətləri həyata keçirilərkən konfidensiallığa (gizliliyə) riayət edilməlidir.
- Tyutorluq fəaliyyətləri qarşılıqlı əməkdaşlıq çərçivəsində həyata keçirilir. Professionallıq tələb edən tyutorluq, peşəkar tyutorlar, müəllimlər, digər təhsil işçiləri və valideynlərlə birlikdə həyata keçirilməlidir.
- Tyutorluq fəaliyyətləri bütün tələbələr üçün nəzərdə tutulmalıdır.
- Tyutorluq fəaliyyətlərində fərdi fərqliliklərə hörmətlə yanaşılmalıdır.
- Tyutorluq fəaliyyətləri tələbənin inkişaf prosesində fiziki, əqli, sosial və psixoloji baxımdan ehtiyaclarını əsas götürməlidir.
- Tyutorluq fəaliyyətləri planlı, qayda və müəyyən proqram əsasında təqdim edilən professional bir köməkdir.
- Tyutorluq fəaliyyətləri hər bir ali təhsil müəssisəsi üçün, hər bir kafedra üçün, hətta hər bir sinif üçün fərqli ola biləcək məqsəd, ehtiyac və

imkanları nəzərə alaraq həyata keçirilməlidir.

- Tyutorluq fəaliyyətləri təhsil sisteminin ayrılmaz bir parçasıdır. Fərdin şəxsiyyətinin formalaşmasına kömək etmək məqsədi ilə həyata keçirilən tyutorluq fəaliyyətləri təhsil sisteminə uyğun və təhsil prosesi ilə ahəng içərisində həyata keçirilməlidir.

Universitetlərdə tyutorluğun növləri dedikdə akademik tyutorluq, peşə tyutorluğu, fərdi tyutorluq (psixoloji məsləhətçilik) başa düşülür.

Akademik tyutorluq tələbənin maraq və qabiliyyətləri nəzərə alınaraq, təhsil imkanlarından ehtiyaclarına uyğun olan və özünü təsdiq etməsinə imkan yaradacağına inandığı təhsil proqramına uyğun hərəkət etməsinə kömək etməkdir. Tyutorluğun bu növündə tələbənin akademik cəhətdən müvəffəqiyyət qazanmasına təsir edə biləcək peşə haqqında məlumat, ixtisas və ixtisasa uyğun dərs seçimi, səmərəli dərsə hazırlaşma, boş zamanların düzgün dəyərləndirilməsi, interaktiv öyrənmə metodları, dərsə hazırlıq və fəal dinləmə, öyrənmə motivasiyası, öyrənmə prosesində fəal iştirak, öyrənilənlərin təkrarı, öyrənilənlərin möhkəmləndirilməsi, imtahana hazırlaşma və müvəffəqiyyət qazanma yolları, lahiyə hazırlama üsulları, kitabxana və digər informasiya mərkəzlərindən səmərəli faydalanma, öyrənilənlərdən başqa sahələrdə və həyatda düzgün və səmərəli istifadə və s. kimi məsələlər diqqətdə saxlanılır.

Peşə tyutorluğu isə təhsil prosesində hər tələbəyə maraq və qabiliyyətlərinə uyğun peşəyə yönəlməsi və hazırlanması üçün lazımi köməyin göstərilməsi məqsədini daşıyır. Seçdiyi peşə haqqında lazımi informasiyanı vermək, peşə sahələri üzrə iş imkanlarından onları xəbərdar etmək, iş dünyası ilə əməkdaşlıq edərək məzunların iş tapmasına kömək etmək, məzun olub iş həyatına başladıqdan sonra da tələbələrlə münasibətləri davam etdirmək, onların iş həyatlarında da müvəffəqiyyət qazanmaları üçün daim dəstək olmaq peşə tyutorluğunun ən vacib vəzifələrindəndir.

Fərdi tyutorluq isə tələbələrin şəxsi problemlərinin həll edilməsinə kömək etmək, onun təhsil proqramlarından daha geniş yararlanmasına, nailiyyətinə mane olan duyğusal və ictimai problemlərindən xilas olmasına kömək etmək məqsədi ilə həyata keçirilən fəaliyyətlərdir. Fərdi tyutorluq əsasən "psixoloji məsləhətləşmə" qaydasında həyata keçirilir.

Tələbələrin inkişaf səviyyəsinə və xüsusiyyətlərinə görə ünsiyyət bacarıqlarını inkişaf etdirmək, müsbət xarakter formalaşdırmaq, cəmiyyət içindəki ictimai rolunu dərk etmə və ona uyğun hərəkət edə bilmə bacarığını inkişaf etdirmək, özünü başqalarının yerinə qoya bilmək, etik

dəyərləri inkişaf etdirmək, düzgün qərarlar verə bilmək, savadlı, insanları fərqlilikləri ilə qəbul edə bilmək və özünə inam duyğusu yüksək fərdlər yetişdirmək fərdi tyutorluğun maraq dairəsini təşkil edir.

I fəslin **“Tyutorların iş prinsipləri və peşəkarlıq keyfiyyətləri”** adlı üçüncü yarımfəslində ali məktəblərdə fəaliyyət göstərən tyutorların vəzifə və səlahiyyətləri, məsuliyyətləri bütün yönləri ilə izah edilmişdir.

Ali məktəblərdə tyutorluq xidmətlərinin aşağıda göstərilən prinsiplər əsasında yenidən tənzimlənməsinin zəruri olduğu qənaətindəyik:

- Təhsil yönümlü, peşə yönümlü və fərdi tyutorluq xidmətləri təqdim edilməlidir.
- Tələbənin özünü dərk etməsini və qərar vermə bacarığını asanlaşdırmaq, mövcud imkanlar daxilində düzgün və səmərəli müdaxilə üsullarının seçilməsini təmin etmək məqsədiylə zəruri hallarda psixoloji testlər ya da digər qiymətləndirmə və planlama üsul və metodlarından istifadə edilməlidir.
- Tyutorluq fəaliyyətlərinin effektivliyi periyodik olaraq qiymətləndirilməlidir.
- Tyutorlar fəaliyyət sahələri ilə bağlı əxlaq normalarına cavab verməlidirlər.
- Tyutorlar həm birbaşa, həm də universitet şəhərciyi daxilində və ya universitetdən kənarda yerləşən müəssisələrlə qarşılıqlı əməkdaşlıq içərisində tyutorluq xidmətləri təqdim etməlidir.
- Universitet şəhərciyi daxilində və ya xaricində psixoloji dəstək mərkəzləri yaradılmalı və zəruri hallarda bu mərkəzlərin dəstəyindən faydalanılmalıdır.
- Ehtiyac olarsa tələbələr haqqında müəllimlər və digər universitet əməkdaşlarına konfidensiallıq prinsipi qorunmaq şərti ilə müşavirlik xidmətləri göstərilməlidir
- Tələbə haqqında məlumatlar tyutorluq xidmətlərinin konfidensiallıq prinsipi qorunmaq şərti ilə həmçinin valideynlərə və ya qanuni nümayəndələrə də verilməlidir.
- Tyutorlar tyutorluq fəaliyyəti çərçivəsində həll edilə bilməyən problemi olan tələbələrin universitet xaricindəki aidiyyatı müəssisə və ya şəxslərə yönləndirilməsi istiqamətində işlək sistemə sahib olmalıdırlar.
- Tyutorlar araşdırma apararkən tyutorluğun əxlaq normaları və tələbələrin ehtiyaclarını nəzərə almalıdırlar.
- Tyutorlar həyata keçirilən tyutorluq fəaliyyətlərinin tələbələrin inkişafı üzərindəki təsirlərini periodik olaraq araşdırmalı və

dəyərləndirməlidirlər.

I fəslin **“Tyutorluq akademik və peşə kəyfiyyətlərinin formalaşmasına təsir edən amil kimi”** adlı dördüncü yarımfəslində tələbələrin davranış qaydalarının formalaşması baxımından arzu olunan nəticəni əldə etməyə kömək edən mövcud təhsil prosesində fərdi, müəllim, ailə, rəhbərlik, akademik qayğı və mühit kimi çox sayda fiziki, psixoloji və ictimai faktorun tələbə nailiyyətinə təsiri dəyərləndirilir.

Fərdin, müəllimin, ailənin, rəhbərlik və mühit kimi faktorların tələbə nailiyyətinə təsirlərini müəyyənləşdirmək üçün hazırlanan 657 tələbə arasında təsadüfi örnəkləmə üsulu ilə aparılmış 22 variantlı sorgudan əldə edilən nəticələrə görə:

- Tələbələrin 99%-i müvəffəqiyyətsiz olmalarına fərdi səbəblərin təsiri olduğunu bildirmişdir. Bu vəziyyət tələbələrin şəxsən həll edə bilmədikləri fərdi problemlərinin olduğunu və bu problemlərin onların təhsil həyatlarına birbaşa təsir etdiyini göstərir.
- Sorğuda iştirak edən tələbələrin yarısından çoxu müəllimin dərsə hazırlıqsız gəlməsini, fənninə qarşı tələbədə maraq oyada bilməməsini, tələbələrlə yaxşı ünsiyyət qura bilməməsini, müasir təlim metodlarından səmərəli istifadə edə bilməməsini müvəffəqiyyətlərinə təsir edən faktorlar arasında qeyd etmişdir.
- Tələbələrin təqribən ¼-i isə müvəffəq ola bilməmələrində ailəvi səbəblərin rol oynadığını bildirmişdir. Bu da yaşlarından asılı olmayaraq tələbələrin hər zaman ailələrinin dəstəyinə ehtiyac duyduqlarını və bu dəstəyin onların təhsillərinə birbaşa təsir etdiyini deməyə əsas verir.
- Tələbələrin yarısından çoxu tədris laboratoriyalarının, sosial fəaliyyət sahələrinin, tələbələrin ixtisaslarıyla bağlı praktik təcrübə imkanlarının və elmi fəaliyyətlərin yetərsiz olmasını müvəffəqiyyətlərinə təsir edən faktorlar arasında göstərmişdir.
- Tələbələrin 45%-indən çoxu ətraf mühitlə bağlı amillərin müvəffəqiyyət qazanmalarına təsir etdiyini ifadə etmişlər.
- Tələbələrin təqribən ¾-ü dərsə necə hazırlaşmalı olduğunu, imtahanlara planlı hazırlaşma qayda və metodlarını bilməmələrinin müvəffəqiyyət qazana bilməmələrinə təsir etdiyini düşünür.
- Sorğuda iştirak edənlərin 70%-i asudə vaxtlarını səmərəli dəyərləndirməyin müvəffəqiyyət qazanmalarında rol oynadığını ifadə etmişdir.

Əldə edilən nəticələr əsasında tələbə nailiyyətinin artırılması üçün

aşağıdakı təkliflər nəzərə alına bilər:

- Tyutorlar və müəllimlər tərəfindən tələbələr və valideynləri ilə maarifləndirmə işi aparılmalıdır.
- Tələbələrin asudə vaxtlarını daha səmərəli dəyərləndirmələrinin təmin edilməsi üçün sosial fəaliyyət imkanları artırılmalıdır.
- Tələbələrə effektiv dərs hazırlaşma metodları haqqında seminarlar təşkil edilməlidir.
- Dərslərin daha səmərəli keçirilə bilməsi üçün laboratoriya imkanları genişləndirilməlidir.
- Tələbələri maraqlandıran dəyişiklik və yeniliklər haqqında onlara vaxtında məlumat verilməlidir.
- Tələbələrə ixtisaslarıyla bağlı praktik təcrübə imkanları təmin edilməli, elmi fəaliyyətlərin sayı artırılmalıdır.
- Tyutorluq fəaliyyətlərinin səmərəliliyi artırılmalıdır.

I fəslin **“Tələbələrin akademik və peşə keyfiyyətlərinin yüksəldilməsi istiqamətində görülən işlərin mövcud vəziyyəti”** adlı beşinci yarımfəslində yuxarıda keçirilən sorğuda əldə edilən nəticələr əsasında tələbələrin akademik və peşə keyfiyyətlərinin yüksəldilməsi üçün tələbə nailiyyətinə mənfi təsir edən faktorların aradan qaldırılması və nailiyyətin artırılması üçün görülən işlərin mövcud vəziyyəti qeyd olunmuşdur.

Bu gün təhsil sahəsində baş verən inkişaf səviyyəsinə uyğun dərs proqramlarının hazırlanması, təlim-tərbiyə işinin təşkili, tələbələrin müvəffəqiyyət qazanmalarına kömək edən fərdi faktorlar, tələbə ilə rəhbər, müəllim, ailə və ətraf mühit arasında səmərəli münasibətlərin təmin edilməsi kimi məsələlərdə tələbələrin qarşılaşdıqları problemlərin həllinə kömək etmək məqsədi ilə mövcud şəraitə uyğunlaşmaları və uğur qazana bilmələri üçün tyutorlar tərəfindən verilən orientasiya xidməti, fərdi tanıma, informasiya toplama və məlumatlandırma, tələbələrin düzgün yerləşdirilməsi, müşavirlik və psixoloji məsləhət kimi xidmətlərin peşəkar səviyyədə həyata keçirilməsi tələbələrin inkişafı baxımından olduqca əhəmiyyətlidir

Dissertasiyanın II fəsli “**Azərbaycan ali təhsil sistemində islahatlar və tyutorluq xidmətinin elmi-metodik məsələləri”** adlanır. Fəsil dörd yarımfəsildən ibarətdir. **“Ali məktəblərdə Boloniya prosesinə uyğunlaşma istiqamətində görülən işlər”** adlı ilk yarımfəsildə Boloniya prosesinin Azərbaycanda inkişafı, məqsəd və hədəfləri haqqında məlumat

verilmiş, ali məktəblərdə həyata keçirilən fəaliyyətlərdən bəhs olunmuş və hal-hazırda Azərbaycan ali məktəblərində Boloniya təcrübəsinin təsirləri əldə edilən məlumatlar əsasında dəyərləndirilmişdir. Eyni zamanda bu yarımfəsildə iş dünyasının tələblərinə uyğun akademik və peşə biliklərinə sahib kadrların hazırlanması istiqamətində həyata keçirilməli olan tyutorluq fəaliyyətləri araşdırılmış, müsbət və mənfi təsirləri ortaya qoyulmuşdur.

Müasir dövrdə yaxşı təhsil dedikdə öyrənmə, yaxud öyrətmə prosesində yeni mənbələr tapmaq, məktəb günlərinin və saatlarının artırılması, standartların yüksəldilməsi, maliyyə imkanların artırılması, kompüter əsaslı təhsil, qiymətləndirmə sisteminin yenilənməsi, müəllimlərin bilik və keyfiyyətlərinin yüksəldilməsi məsələləri ilə yanaşı, təhsil proqramlarını günün tələblərinə görə inkişaf etdirmək, ixtisasların tələb etdiyi şəkildə texnologiyadan istifadə etmək, müəllimlərin keyfiyyətlərinin artırılması və ömür boyu təhsil anlayışının genişləndirməsi ilə bağlı stratejik qərarları birlikdə vermək imkanlarına malik təhsil nəzərdə tutulur. Boloniya prosesi davamlı yenilənən və inkişaf etdirilən dinamik bir prosesdir. Boloniya prosesinin qarşıya qoyduğu hədəflər ali təhsil fəaliyyətlərinin qlobal səviyyəyə yüksəldilməsi üçün üzv ölkələrə əhəmiyyətli vasitələr təqdim edir.

II fəsilin ikinci yarımfəsli "**Ali məktəblərdə tyutorluq işlərinin təşkili və nəticələri**" adlanır. Azərbaycan təhsilinin dünya təhsil sisteminə, xüsusi ilə ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesini və Boloniya Bəyannaməsinin tələblərinin yerinə yetirilməsi sahəsində işləri sürətləndirmək məqsədi ilə aparılan islahatlar haqqında Azərbaycan Respublikasının Milli Hesabatı ali təhsil qarşısında duran aşağıdakı vəzifələri müəyyənləşdirir ki, bunların da həyata keçirilməsində tyutorluq xidmətlərinin rolu çox böyükdür:

- Ali təhsilin strukturu yenilənərək cəmiyyətin və bazar iqtisadiyyatının tələbatına uyğunlaşdırılmalıdır.
- Ali təhsilin idarə olunmasında demokratik prinsiplərə üstünlük verilməlidir. Tələbələrin ali məktəblərin idarə olunmasında bu və ya digər formada iştirakı təmin olunmalı, idarəetmədə ictimai birliklərin rolu artırılmalıdır. Təhsilin idarəolunmasında ictimaiyyətin iştirakı genişləndirilməli, ictimaiyyətin diqqəti təhsilin problemlərinə və ehtiyaclarına cəlb edilməlidir.

Ali məktəblərdə təşkil olunan tyutorluq xidmətləri tələbələrə korporativ təlimlərin təşkilinə yaxından köməklik göstərir. Bu təlimlər işin planlaşdırılması və tətbiqi, şirkət mədəniyyəti və iş etikası, insan

resurslarının idarə edilməsi, şirkətdaxili münasibətlər və digər mövzularda ola bilər.

Tyutorlar tələbələrin elm, iş və siyasət dünyasının tanınmış şəxsləri ilə əlaqə quraraq onların təcrübələrindən istifadə edə bilmələri məqsədi ilə tədris ilinin müvafiq zamanlarında uyğunlaşdırılmış kariyera günləri təşkil edirlər.

Tyutorlar tələbənin ixtisas hazırlığı keyfiyyətinin yüksəldilməsi istiqamətində fəaliyyət sahələri üst-üstə düşən tələbə klubları ilə ortaq proqramlar təşkil edir. İş dünyasının maraqlarını əks etdirən müxtəlif təyinatlı (elmi, hüquqi, sosial, mədəni və s. xarakterli) proqramların tələbə klubları ilə ortaq keçirilməsini təmin edir.

Tyutorluq xidmətində günlük təcrübə ekskursiyaları da çox maraq doğurur. Tədrisdə praktik şəraitdə aparılan tədrisə hər zaman üstünlük verildiyinə görə, müxtəlif şirkət və ya müəssisələrə təcrübə xarakterli gəzintilər təşkil edilir.

Tyutorlar ayrı-ayrı şirkət və müəssisələrin təşkil etdiyi təqaüd proqramlarında tələbələrin fəal iştirakını təmin edir. Beləliklə də, şirkətlərin sosial proqramlarında bu sahənin inkişaf etdirilməsini tövsiyə etməklə yanaşı, onların tətbiq edəcəyi proqramlarda həmin ali məktəbin və tələbələrinin iştirakına zəmin hazırlayır.

Tyutorlar ixtisas hazırlığı işində tələbələrə yaxından köməklik göstərirlər bilirlər. Bu çərçivədə hər bir tələbənin seçdiyi ixtisasa uyğun olaraq müəyyənləşdirdiyi hədəflər onun maraq və xarakterinə uyğun şəkildə qiymətləndirilir.

Prezident İlham Əliyevin göstərdiyi "Neft kapitalının insan kapitalına çevrilməsi" hədəfi istiqamətində arzu olunan kadrların hazırlanması üçün ali təhsil müəssəsələri sistemlərini təkmilləşdirməli, bunun üçün professor-müəllim heyətinin və tələbələrin akademik və peşə baxımından inkişaf etmələrinə imkan yaradacaq strukturları formalaşdırmalıdırlar.

II fəsilin üçüncü yarımfəsli "**Ali məktəblərdə tyutorluq fəaliyyətlərinin reallaşmasına mane olan amillər**" adlanır. Yarımfəsildə ali məktəblərdə tyutorluq işlərinin səmərəli təşkil olunması ilə bağlı məsələlər və həll yollarından bəhs olunur.

Təhsil müəssisələrinin mədəni strukturları, təbii olaraq tyutorluq xidmətlərinin tətbiq formalarına da təsir göstərir. Beləliklə, ali təhsil müəssisələrinin təşkilati quruluşu tyutorlar üçün özünəməxsus imkanlar yaratmaqla yanaşı, bəzi problemlərə də səbəb olur. Əslində, ali məktəblərin xüsusiyyətlərini nəzərə alsaq, tyutorların rol və funksiyalarının təkcə

tələbələrlə məhdudlaşmadığını görərik. Eyni zamanda təhsil müəssisəsi rəhbərliyi və digər əməkdaşlarla da qarşılıqlı əməkdaşlıq çərçivəsində işləməlidirlər.

Digər tərəfdən, artan psixoloji problemləri, inkişafla bağlı yaş xüsusiyyətləri və universitetə daxil olduqları zaman yaşadıqları çətinliklər tələbələrin stresini daha da artırır və bu vəziyyət, təbii olaraq universitetə daxil olduqları andan etibarən, tələbələrin tyutorluq xidmətlərindən istifadə etmək istəklərini artırır. Ancaq təhsil müəssisələrinin büdcələrinin məhdud olmasını və tyutorluq xidməti göstərən peşəkar kadr çatışmazlığnı da nəzərə alsaq, hər bir tələbə üçün qısa müddətli psixoloji məsləhət vermək bir çox tyutor tərəfindən əsas müdaxilə metodu olaraq qəbul olunsa da, əslində bu yol tələbələrin tyutorluq xidmətlərinə olan ehtiyac və istəklərini nəzərə aldıqda effektiv nəticə vermədiyi kimi, tələbələrin tələbləri qarşısında tyutorlar çətinlik çəkməkdə, tələbələrin ehtiyaclarını necə qarşılayacaqları barədə qeyri-müəyyənliklərlə rastlaşmaqda və həddən artıq iş yükü səbəbi ilə qısa müddətdə bezginləşməkdədirlər.

II fəsilin dördüncü yarımfəsli "**Tyutorluq fəaliyyətlərinin keyfiyyətinin artırılması yolları**" adlanır. Yarımfəsildə qeyd olunur ki, tələbələrin akademik bilik və ixtisas hazırlığı keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, ali məktəblərin inkişafında əhəmiyyətli bir rola malik olan tyutorların xidmətlərindən arzu edilən nəticənin əldə edilə bilməməsinin səbəbi, ali təhsil müəssisələrində tyutorluğun vəzifələrinin tam müəyyən edilməməsi və yerinə yetirilə bilməməsidir. Bu araşdırmada tyutorluğun mahiyyət və əsasları aydın bir şəkildə ortaya qoyulmaqla yanaşı, tyutorların ideal səviyyədə xidmət göstərmələrinə təsir edən amillər də müəyyənləşdirilmiş, Azərbaycanda fəaliyyət göstərən ali məktəblərdə tətbiq olunan tyutorluq fəaliyyətlərindən tələbələrin hansı səviyyədə xəbərdar olduqları, tyutorların öz vəzifələrini dərk etmə səviyyəsi, tələbələrin tyutorluq fəaliyyətlərindən nə gözlədikləri haqqında tyutorların və tələbələrin fikirləri öyrənilmişdir. Nümunə kimi də tələbələrin ali təhsil müəssisəsində aldıqları tyutorluq xidmətlərinin keyfiyyətinin dəyərləndirilməsi ilə bağlı suallar və bu suallara verilən cavabların nisbəti təqdim olunmuşdur.

**Tələbələrin universitetlərdə təqdim edilən tyutorluq xidmətlərindən məmnuniyyət səviyyəsi**

Cədvəl 2.6

| Variant- | Tama- | Razı- | Qismən | Razı | Əsla | Ortalama |
|---|---|---|---|---|---|---|

| lar | milə razıyam | | yam | | razıyam | | deyiləm | | razı deyiləm | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Suallar | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % |
| 1- | Oxuduğum bölmə öyrənmək baxımından məni qane edir | | | | | | | | | | | |
| | **204** | **31** | **103** | **40** | **131** | **20** | **39** | **6** | **26** | **4** | **657** | **74.7** |
| 2- | Oxuduğum bölmə ixtisas hazırlığı baxımından məni qane edir | | | | | | | | | | | |
| | **171** | **26** | **269** | **41** | **145** | **22** | **46** | **7** | **26** | **4** | **657** | **75.2** |
| 3- | Peşəmi başqalarına tövsiyyə edərəm | | | | | | | | | | | |
| | **237** | **36** | **269** | **41** | **99** | **15** | **33** | **5** | **20** | **3** | **657** | **80.5** |
| 4- | Peşəm üzrə müasir texnologiyanı və yenilikləri izləməyə imkan yaradılır | | | | | | | | | | | |
| | **184** | **28** | **276** | **42** | **125** | **19** | **33** | **5** | **39** | **6** | **657** | **76.3** |
| 5- | İxtisas hazırlığı keyfiyyətini yüksəltmək məqsədi ilə təşkil edilən sosial fəaliyyətlərdən (tələbə dərnəkləri, bədii özfəaliyyət qrupları, idman kimi) məmnunam | | | | | | | | | | | |
| | **158** | **24** | **289** | **44** | **138** | **21** | **46** | **7** | **26** | **4** | **657** | **75.5** |
| 6- | Akademik nailiyəti yüksəltmək məqsədi ilə təşkil edilən tədris fəaliyyətlərindən (kitabxana, tədris hissəsi, laboratoriya xidmətləri kimi) məmnunam | | | | | | | | | | | |
| | **250** | **38** | **256** | **39** | **92** | **14** | **39** | **6** | **26** | **4** | **657** | **79.9** |
| 7- | Müəllimlərin öyrətmə metodu fənni öyrənmək üçün kifayətdir | | | | | | | | | | | |
| | **177** | **27** | **230** | **35** | **151** | **23** | **59** | **9** | **39** | **6** | **657** | **73.7** |
| 8- | Müəllimlər dərslərinə və ixtisasıma qarşı maraq oyada bilir | | | | | | | | | | | |
| | **210** | **32** | **197** | **30** | **138** | **21** | **66** | **10** | **46** | **7** | **657** | **73.91** |
| 9- | Müəllimlər dərsdə tələbələrə qarşı münasibətlərində diqqətlidir | | | | | | | | | | | |
| | **282** | **43** | **250** | **38** | **79** | **12** | **20** | **3** | **20** | **3** | **657** | **82.61** |
| 10- | Tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə göstərilən umumi xidmətlərdən (tibbi yardım, təmizlik, yeməkxana kimi) razıyam | | | | | | | | | | | |
| | **230** | **35** | **256** | **39** | **112** | **17** | **39** | **6** | **20** | **3** | **657** | **79.36** |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 11- | Gələcəkdə iş tapmağıma köməklik göstərəcək fəaliyyətlərin (əmək fuarı, kariyera günləri, iş görüşmələri və s.) təşkilindən razıyam | **230** | **35** | **210** | **32** | **125** | **19** | **39** | **6** | **46** | **7** | **657** | **76.42** |
| 12- | İxtisasımla bağlı elmi fəaliyyətlərdən (seminar, konferans və s.) məmnunam | **177** | **27** | **237** | **36** | **145** | **22** | **66** | **10** | **39** | **6** | **657** | **73.8** |
| 13- | Tyutorluq proqramında nəzərdə tutulan peşə tyutorluğu fəaliyyətləri məni qane edir | **164** | **25** | **204** | **31** | **151** | **23** | **85** | **13** | **52** | **8** | **657** | **70.4** |
| 14- | Tələbələrlə bağlı dəyişikliklərdən və yeniliklərdən vaxtında xəbərdar edilirəm | **171** | **26** | **210** | **32** | **164** | **25** | **59** | **9** | **59** | **9** | **657** | **71.4** |
| 15- | Universitet rəhbərliyinin problemlərimlə yaxından maraqlandıqlarına inanıram | **204** | **31** | **210** | **32** | **125** | **19** | **66** | **10** | **53** | **8** | **657** | **73.6** |
| 16- | Problemlerimin həlli üçün tyutoruma müraciət edirəm | **164** | **25** | **217** | **33** | **138** | **21** | **72** | **11** | **72** | **11** | **657** | **70.2** |
| 17- | Tyutorluq xidmətlərindən məmnunam | **276** | **42** | **191** | **29** | **99** | **15** | **46** | **7** | **46** | **7** | **657** | **78.2** |
| TOPLAM | | | | | | | | | | | | | **75.65** |
| 18- | Necə bir tyutor istərdiniz...................................... | | | | | | | | | | | | |

Cədvəl 2.6 əsasında ümumi şəkildə universitet ortalamasına nəzər salsaq, tələbələrin 75.65 %-nin təqdim edilən tyutorluq xidmətlərindən məmnun olduqlarını deyə bilərik.

Tədqiqat aşağıdakı nəticələrə gəlməyə imkan verir:

Tədqiqatda Azərbaycan ali məktəblərində təqdim olunan tyutorluq xidmətlərinin universitet rəhbərlikləri tərəfindən idarə olunduğu və xidməti yerinə yetirən tyutorların əksəriyyət etibarilə müəllimlər arasından

seçildiyi görülmüş, hal-hazırda tətbiq edilən tyutorluq modelinin dünyada tətbiq edilməyə başlanan ilk tyutorluq modeli ilə oxşar xüsusiyyətlərə malik olduğu müəyyən edilmişdir.

Bütün ali məktəblərdə tyutorların xidmət sahələri və vəzifələri universitetlər tərəfindən müəssisədaxili əsasnamələrlə tənzimlənmişdir. Tətbiq edilən model ətraflı şəkildə incələndiyi zaman tyutorların vəzifələrinin əsasən dərs qeydiyyatlarının aparılmasından, dərs proqramlarının hazırlanmasından, tələbələrin iştirak edə biləcəkləri elmi və sosial fəaliyyətlər haqqında onların məlumatlandırılmasından, tələbələr haqqında zəruri informasiyaların və sənədlərin tərtib edilərək rəhbərliyə təqdim edilməsindən, tələbələrlə bağlı dəyişiklik və yeniliklərin onlara vaxtında çatdırılmasından, təhsil və kariyera planları ilə bağlı məsələlərdə tələbələrə köməklik göstərilməsindən ibarət olduğu təsbit edilmişdir.

Ali məktəblərdə əksəriyyət etibarilə tyutorluq xidmətlərinin xüsusi ixtisaslı bir şöbə tərəfindən deyil, birbaşa müəssisə rəbərliyi tərəfindən idarə edildiyi görülmüşdür. Bu vəziyyət tyutorların universitet rəhbərlikləri tərəfindən birbaşa dəstəkləndikləri kimi görünsə də, əslində tyutorluq xidmətlərinin təhsil müəssisəsi nəzdində qurulacaq xüsusi bir tyutorluq mərkəzi vasitəsi ilə həyata keçirilməsinin daha faydalı olacağı qənaətindəyik. Tələbələr xüsusilə müvəffəqiyyət qazana bilməmə qorxusu, boş zamanların səmərəli dəyərləndirilməsi, effektiv dərs çalışma metodları, elmi və sosial fəaliyyətlərdə iştirak kimi məsələlərin həllində birbaşa bu mərkəzə müraciət edə bilməlidirlər. Bu prosesdə birinci növbədə problemi olan tələbələrin problemləri təsbit edilməli, daha sonra bu tələbələrlə münasib ünsiyyət vasitəsi müəyyənləşdirilərək tələbənin probleminin həlli istiqamətində tyutorun hansı addımları atmalı olduğu düzgün müəyyənləşdirilməlidir. Bu mərhələdə tyutorun təcrübəsi təqdim olunan tyutorluq xidmətinin səmərəliliyinə təsir edəcəkdir. Tyutorluq mərkəzlərində fəaliyyət göstərən peşəkar kadrlar zəruri hallarda tyutorla tələbə arasında düzgün ünsiyyətin qurulmasına kömək etməlidirlər.

Tyutorluq xidmətlərinin əsas məqsədi tələbələrə təhsil həyatlarını düzgün planlaşdıra bilmələri istiqamətində köməklik göstərmək, akademik, sosial və mədəni məsələlərdə yol göstərmək, əqli, fiziki, sosial və psixoloji baxımdan tələbənin bir şəxsiyyət kimi formalaşmasına köməklik göstərmək olmalıdır.

Tyutorluq xidmətlərinin dəyərləndirilməsi istiqamətində bəzi ali məktəblərdə mütəmadi olaraq anket sorğularının keçirildiyi müəyyən edilsə də, ali məktəblərin əksəriyyətində tyutorluq xidmətlərinin düzgün

dəyərləndirilməsi və yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi istiqamətində işlək mexanizmin olmadığı görülmüşdür.

Ali təhsil müəssisələrində tyutorluq xidmətlərinin daha yüksək səviyyədə mənimsənilməsi və səmərəliliyinin artırılması üçün aşağıdakı təklifləri irəli sürülmüşdür.

- Ali məktəblərdə fakültə və bölmələr nəzdində tyutorluq mərkəzləri qurulmalı və fəaliyyətlər bu mərkəzdən idarə edilməlidir.
- Ali məktəblərdə tyutorluq xidmətləri təşkilatlanmış qaydada həyata keçirilməli və bütün şöbələrin tyutorluq fəaliyyətlərində aktiv rol almaları təmin edilməlidir.
- Tyutorluq xidmətlərinin qanuni əsasları, tyutorların vəzifə və səlahiyyətləri, tyutorluq fəaliyyətlərinin təşkili və tətbiqi qaydaları müəyyən edilməlidir.
- Tyutorluq xidmətləri sistemli bir şəkildə yoxlanılmalı, xidməti təqdim edən və xidmətdən istifadə edənlərin fikirləri əsasında mütəmadi olaraq yenilənməli və inkişaf etdirilməlidir.
- Tyutorların öz vəzifələri ilə bağlı məlumat əskikliklərinin aradan qaldırıla bilməsi üçün təlimlər təşkil edilməlidir.
- Tyutorların tələbələrlə bağlı yeniliklərdən və dəyişikliklərdən xəbərdar olmalarını və xidmət bütünlüyünü təmin etmək üçün ali məktəb rəhbərliyinin və tyutorların iştirakıyla müəyyən periodlarla toplantılar təşkil edilməlidir.
- Tələbələrdə tyutorların vəzifələri haqqında şüur formalaşdırılmalıdır.
- Universitetə yeni qəbul olan tələbələr üçün orientasiya təlimləri təşkil edilməlidir.
- Tyutor başına düşən tələbə sayı azaldılmalıdır.
- Tyutorların zamanları öz vəzifələrini yerinə yetirə biləcəkləri şəkildə tənzimlənməlidir.
- Tələbələrin tyutorları ilə rahatlıqla görüşə bilmələri üçün asudə vaxtlarının bir-birinə uyğun gəlməsinə diqqət yetirilməlidir.
- Tələbələrlə tyutorları bir araya gətirəcək mühitlər yaradılmalı, bu istiqamətdə sosial fəaliyyətlər artırılmalıdır.
- Tyutorların məsuliyyətinə verilən tələbələr tez-tez dəyişdirilməməlidir.
- İstəyən tələbələrə tyutorlarını dəyişdirəbilmə imkanı verilməlidir.
- Tələbələr tyutorluq xidmətlərinə təşfiq edilməlidir.
- Tyutorların "yeniyetməlik dövrünün" xüsusiyyətləri haqqında

kifayət qədər informasiyaya sahib olmaları onların tələbələrlə daha asan ünsiyyət qura bilmələrinə kömək edəcəyi nəzərə alınmalıdır.

- Xüsusi ilə yuxarı kurs tələbələrinə iş həyatına hazırlanmalarında aktiv kömək edə biləcək təcrübəli tyutorların təyin edilməsinə diqqət yetirilməlidir.

- Peşəkar tyutorların rəhbərliyi altında başda professor-müəllim heyəti olmaqla bütün əməkdaşların tyutorluq xidmətlərinin həyata keçirilməsində rol almaları təmin edilməlidir.

- Peşələrin tanıdılması məsqsədi ilə seminar, konfrans və kariyera günləri təşkil edilməlidir.

- İş yerlərinə gəzintilər təşkil edilməli, iş dünyasında kifayət qədər təcrübə sahibi olan iş adamları universitetlərə dəvət edilərək tələbələrlə görüşlər təşkil edilməli, peşə həyatının tələbləri haqqında iş dünyası subyektləri tərəfindən birbaşa informasıyaların çatdırılmasına imkan yaradılmalıdır.

- Tələbələrin potensiallarını, fərdi xüsusiyyətlərini, bacarıqlarını və gələcəklə bağlı düşüncələrini formalaşdırmağa kömək edəcək işlər görülməli, tələbələrin öz prioritetlərini müəyyənləşdirmələrinə kömək edilməlidir.

- Təhsil proqramları iş dünyasının tələbələrinə cavab verəcək şəkildə hazırlanmalı və peşəkar kadr ehtiyacı aradan qaldırılmalıdır.

- Tələbələrin səviyyəsinə görə iş və peşə dünyası haqqında məlumat ala biləcəkləri dərslər nəzərdə tutulmalıdır.

- Təhsil müəssisələrində həyata keçirilən tyutorluq fəaliyyətlərinin səmərəliliyinin artırılması üçün zəruri vasitə, vəsait və fiziki təchizat təmin edilməlidir.

- Müəllimlərin tyutorluq fəaliyyətlərinin həyata keçirilməsində aktiv iştirakını təmin etmək üçün auditoriyaların tələbə sayı fərdi görüşlərə imkan yaradacaq şəkildə azaldılmalıdır.

- Həyata keçirilən tyutorluq fəaliyyətlərinin səmərəliliyi tələbə, valideyn və digər təhsil işçiləri ilə görüşülərək qiymətləndirilməlidir.

- Tyutorluq fəaliyyətlərinin səmərəliliyini artırmaq üçün zəruri qanunvericilik bazası hazırlanmalı və fəaliyyətlərin həyata keçirilməsi mexanizmləri, tyutorların vəzifə və səlahiyyətləri kimi məsələlər yazılı şəkildə tənzimlənməlidir.

Tədqiqatın məzmunu, əsas müddəaları və nəticələri nəşr olunmuş aşağıdakı əsərlərdə öz əksini tapmışdır:

1. Tələbələrin motivasiyasını artırma strategiyaları / Naxçıvan Dövlət Universiteti. Ümumi orta təhsilin müasir problemləri mövzusunda beynəlxalq elmi konfransın materialları, Naxçıvan: 24 noyabr 2012, s.185-186

2. Universitet tələbələrinin peşə seçiminə istiqamətləndirilməsində tyutorluq / Qafqaz Universiteti. Gənc Tədqiqatçıların I Beynəlxalq elmi konfransı, Bakı: 26-27 aprel 2013, s. 613

3. The use of interactive methods in the training process and its impact on the quality of the training // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, Bakı: 2014, №3, s.22-27

4. Təlim və tədris prosesində tyutorluğun rolu və əhəmiyyəti // Azərbaycan Pedaqoji Universitetinin Xəbərləri, 2014, №4, s. 304-307

5. Tələbə nailiyyətinə təsir edən faktorlar və bu prosesdə tyutorluğun rolu // M.Fuzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri, 2014, №8, s. 400-405

6. Tyutorluq fəaliyyətlərinin keyfiyyətinin yüksəldilməsində müəllimin rolu // M.Fuzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri, 2014, №9, s.166-170

7. Azərbaycan ali təhsil islahatı və tyutorluq // Bakı Avrasiya Universiteti, Sivilizasiya (elmi-nəzəri jurnal), 2014, №9, s. 86-94

8. Роль управления учебным процессом в формировании учебного процесса академических достижений студентов / Полтавский Национальный Педогогичный Университет Имены В.Г.Короленко, 100-риччю вищу присвягуэться Педагогичны науки Збырник Наукових Праць, Полтава: 5-10 Апреля 2014, № 60, стр. 36-42

9. The importance of teachers usage of interactive methods to encourage students learning activities // Azərbaycan Dillər Universiteti. Dil və ədəbiyyat, 2015, №1, s.238-242

10. Universitet idarəçilərinin tyutorluq anlayışının tələbə nailiyətinə təsiri. Bakı: Qafqaz Universiteti, Gənc Tədqiqatçıların I Beynəlxalq elmi konfransı, 17-18 Aprel 2015, s. 137

11. The importance of guidancə role of teachers in the modern education notion // Bakı Qızlar Universitetinin Elmi əsərləri, Bakı: 2015, №1(21), s. 57-61

12. Tyutorluq fəaliyyətlərinin keyfiyyətinin artırılması yolları // Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2015, №2(22), s. 173-177

13. Роль применения методов обучения в улучшении качества

обучения // Полтавский Университет Економыки и Торгывлы, Актуалны проблемы та перспективи розвитку харчових виробництв, готельно-ресторанного та туристичного бизнесу, Полтава: 2015, стр. 335-339

**MEHMET ALI DURDU oglu JEYHAN**

# The role of academic advising in improving the academic achivments and speaciality trainings of college students

**SUMMARY**

The thesis consists of an introduction|, two chapters, conclusion, the list of literature and additions.

In the introduction the urgency of a theme, identified the obyect, subyect, purpose, obyectives and methods, as well as provisions made for defense. We formulate a scientific hypothesis, the theoretical and practical importance of the work.

The first chapter of the dissertation is called "the content and direction of the academic advising service at higher education institution" deals with the definition of adviser and its essence. According to the investigation, information are given on the essence of adviser including for what reason need for adviser is emerge and advising models implementing at higher education institution.

The second chapter of the dissertation is called "the higher education reforms in Azerbaijan and scientific and methodological issues of the educational advising service talks about the educational advising services at the Universities operating in Azerbaijan. To become familiar with the educational advising services, meeting with university adviser has been arranged and through a survey, students and advisers' thinking about the activities of advising service examined. At the same time, examining the university web pages, the deep investigation carried out on how universities works to make widely known of the performed activities including working mechanism, legal basis and structure

The thesis ends with general conclusions and a list of references.

**МЕХМЕТ АЛИ ДУРДУ ОГЛУ ДЖЕЙХАН**

**Роль тюторской деятельности в повышении качества академических успехов и квалификационной подгтовки студентов высших учебных заведений**


## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, двух глав, заключения и списка использованной литературы

"В введение", актуальность исследования оправдывается, объект, предмет, цель, задачи, предположения, научные инновации исследования вместе с методы подготовки используемые в процессе обсуждаются, дается информация о важность теоретических и экспериментальных исследований и результаты применения.

Четкости и суть репетиторства была объяснена в первой главе диссертации под названием "Содержание и тенденции тьюторской системы в высшем образовании". В результате исследований, информация о цели и сущности репетиторства и о моделях репетиторства применяемых в университеты была предоставлена.

Для того, чтобы ознакомиться с репетиторство в Азербайджанских университетах заседаний были проведены с преподавателями, были исследованы мышления студентов и преподавателей о репетиторства деятельности во второй главе диссертации под названием "Азербайджанская реформа высшего образования и научно-методологические проблемы репетиторства".В то же время веб-страниц университетов, механизм деятельности, правовая основа и структура были широко изучены. Результаты этих исследований представлены в этой главе диссертации.

Тезис заканчивается с общими выводами и списком литературы.

Çapa imzalanmışdır: 02.10.2015
Formatı: 60×90, 16/1, həcmi: 1,4 ç/v
Sifariş: 34   Sayı 100

NDU-nun "Qeyrət" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**НАХИЧЕВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
УНИВЕРСИТЕТ**

На правах рукописи

**МЕХМЕТ АЛИ ДУРДУ ОГЛУ ДЖЕЙХАН**

# РОЛЬ ТЮТОРСКОЙ ДЕЯТЕЛЬНОСТИ В ПОВЫШЕНИИ КАЧЕСТВА АКАДЕМИЧЕСКИХ УСПЕХОВ И КВАЛИФИКАЦИОННОЙ ПОДГТОВКИ СТУДЕНТОВ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ

5804.01-Общая педагогика, история педагогики и образования

**АВТОРЕФЕРАТ**
диссертации на соискание ученой степени
доктора философии по педагогике

**НАХЧЫВАН – 2015**